İctimai fənlərin tədrisində müasir texnoloji avadanlıqlar və resurslardan istifadə

Müəllif **Nərminə Məmmədova**
Pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmlər doktoru proqramı üzrə doktorantı.
E-mail: nermine_m@mail.ru
https://orcid.org/0000-0002-9767-8621

Annotasiya Bu araşdırmada məqsəd ümumtəhsil məktəblərində ictimai fənlərin tədrisində müasir texnoloji avadanlıqlar və resurslardan istifadə vəziyyətini təhlil etmək və müvafiq təkliflər verməkdir. Araşdırmada məlumattoplama vasitəsi kimi anket sorğusundan istifadə olunmuşdur. Tədqiqatın əsasını 2015-ci ildə ölkənin müxtəlif bölgələrini əhatə edən şəhər və rayon məktəblərində müasir tədris avadanlıqları və resurslardan istifadə ilə bağlı aparılmış anket sorğusu təşkil edir. Tipik dövlət məktəbləri və «Elekton məktəb» pilot layihəsinin həyata keçirildiyi məktəblərdən tədqiqata 53 müəllim cəlb edilmişdir. Alınan nəticələr ictimai fənn müəllimlərinin tədris prosesində müasir tədris avadanlıqları və resursların istifadə edilməsi ilə bağlı bir sıra problemlərlə qarşılaşdıqlarını ortaya çıxarmışdır.

Açar sözlər Ümumtəhsil, ictimai fənlər, müasir texnologiya, texnoloji avadanlıqlar, tədris resursları, anket sorğusu, araşdırma.

http://dx.doi.org/10.29228/edu.73

Məqaləyə istinad:
Məmmədova N. (2019) *İctimai fənlərin tədrisində müasir texnoloji avadanlıqlar və resurslardan istifadə.* «Azərbaycan məktəbi». № 4 (689), səh. 119–132

Məqalə tarixçəsi: Göndərilib — 17.09.2019; Qəbul edilib — 21.10.2019

On the use of modern technological equipment and resources in teaching social disciplines

Author **Narmina Mammadova**
PhD in Pedagogical Sciences, The Institute of Education of the Republic of Azerbaijan. E-mail: nermine_m@mail.ru
https://orcid.org/0000-0002-9767-8621

Abstract The purpose of this study is to reveal the state of use of modern technological equipment and resources in teaching public disciplines in secondary schools and to make appropriate recommendations. The survey used survey questionnaires as a means of collecting information. The main line of the survey is a survey of the use of modern teaching equipment and resources in 2015 in urban and regional schools covering different regions of the country. 53 teachers were involved in the study from typical public schools and schools in which the «Electronic School» pilot project was implemented. The results revealed that public subject teachers faced a number of problems with the use of modern teaching equipment and resources in the teaching process.

Keywords General education, social sciences, modern technology, technological equipment, educational resources, survey question, research.

http://dx.doi.org/10.29228/edu.73

To cite this article: Mammadova N. (2019) *On the use of modern technological equipment and resources in teaching social disciplines.* Azerbaijan Journal of Educational Studies. Vol. 689, Issue IV, pp. 119–132

Article history: Received — 17.09.2019; Accepted — 21.10.2019

Giriş

XXI əsr mütəxəssislər tərəfindən kompüter texnologiyalarının cəmiyyətin bütün sahələrində geniş yayıldığı və istifadə edildiyi bir dövr kimi səciyyələndirilir.

Mütəxəssislərə görə, gələcəyə istiqamətli olan bu günün problemlərinin, dünənin üsulları ilə həll edilə bilməməsi həqiqətdir. «Əgər təhsil mühitlərimizi (siniflərimizi) mətbəxlərimiz qədər texnoloji avadanlıqlarla təchiz edə bilsəydik, təhsildəki problemləri böyük ölçüdə azalda bilərdik» deyərkən, müasir texnologiyaların öyrənmə mühitlərində istifadə edilməsinin zəruri olduğu ifadə edilməyə çalışılmışdır [Alkan C. 2011].

Hazırda təhsilin ən əhəmiyyətli məqsədi məlumata çatma yollarını bilən, texnoloji avadanlıqların doğru istifadəsini öyrənən fərdlər yetişdirmək üçün bilavasitə təhsilin məzmununu, təhsil sisteminin infrastrukturunu yenidən qurmaq zərurəti yaranmışdır. Bu baxımdan təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasından və müasir informasiya texnologiyalarından (İKT-dən) faydalana biləcək bütün imkanları təhsil prosesinə daxil etmək, onların imkanlarından təlim-tərbiyə fəaliyyətlərində, tədris prosesində ən üst səviyyədə faydalanmaq günün tələbidir [Chadwick, C. 2002; Андресен Бент Б. 2007; Alpar D., Gülşah B., Yusuf A. 2007].

Təcrübələr göstərir ki, müasir tədris avadanlıqları və resursları yalnız sistemli, elmi və ardıcıl şəkildə tətbiq edildikdə təhsilin ayrılmaz hissəsinə çevrilə bilər. Təhsil sistemində müasir tədris avadanlıqları və resurslardan istifadə dedikdə, ilk növbədə sinif otaqlarının fərdi kompüter, planşet, mediaproyektor, skaner, printer, «Ağıllı lövhə»lər və digər oxşar texniki avadanlıqlarla təhcizatı nəzərdə tutulur.

Bu gün ölkəmizdə təhsilin maddi-texniki təminatı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı geniş tədbirlər həyata keçirilir, təhsilin modernləşdirilməsinə xidmət edən problemlərə xüsusi diqqət yetirilir.

2009-cu ildən respublikamızda reallaşmasına başlanan «Elektron məktəb» pilot layihəsi çərçivəsində təhsil müəssisələrində tətbiq olunan texnologiyalar Azərbaycanda müasir tədris avadanlıqlarına və resurslarına əsaslanan milli təhsil modelinin formalaşdırılmasına xidmət edir.

Pilot layihəli «Elektron məktəb»lərdə infrastrukturun yaxşılaşdırılması və zəruri müasir tədris avadanlıqları (noutbuk, proyektor, ağıllı (smart) lövhə və s.), onların proqram təminatı ilə təchiz olunması, yüksək sürətli internet bağlantılarının təmin edilməsi, bu məktəblərdə çalışan kadrların (pedaqoji, inzibati, texniki və s.) İKT sahəsində bilik və bacarıqları daha yüksək səviyyədədir. Bu məsələ son dövrlərdə davamlı olaraq bir çox dövlət əhəmiyyətli sənədlərdə, o cümlədən «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına

dair 2014-2020-ci illər üçün Milli Strategiya»da aydın ifadə olunmuşdur. Bu Milli Strategiya müvafiq sahəyə uyğun ehtiva olunan məsələlər bunlardır: gənc nəslin müasir texnologiyaların fəal istifadəçiləri, yaradıcıları kimi formalaşdırılması, müasir tədris avadanlıqları və resursların təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, rəqəmli təhsil informasiya ehtiyatlarının yaradılması, təhsil prosesini dəstəkləyən elektron tədris resurslarının inkişaf etdirilməsi və s. [Məmmədova N. 2018].


Dövlət və cəmiyyət həyatında əhəmiyyətli yer tutan ictimai fənlər, o cümlədən «Tarix» fənni təhsilalanlara sevdirilməli və effektli şəkildə öyrədilməlidir. Çünki bu şəkildə yetişən bir nəsil müstəqil düşünməyi, duyğu və şərh gücünü inkişaf etdirməyi, mədəni səviyyəsini genişlətməyi, özünə güvən qazanmağı, yaxşı şeylərdən nümunə və pis şeylərdən ibrət götürərək davranmağı öyrənir. Gələcək nəslə tarix təhsili ilə mədəniyyət mirası köçürülərək, milli mənlik qorunmuş, əxlaqi dəyərlər mənimsədilmiş və ictimai inkişaf təmin edilmiş olur [Tay B. 2011; İşman A. 2006; D'Angelo Jill M. & Woosley Sherry A. 2007; Məmmədova N. 2015].

İctimai fənlərin tədrisində, o cümlədən tarix dərslərində müasir texnoloji avadanlıqlardan istifadənin faydasını belə izah etmək olar:

- Təhsilalanların müxtəlif mövzuları sürətlə mənimsəməsini mövzuya fokuslanmalarını, təhsildə davamlılığı təmin edir, müvəffəqiyyət nisbətini yüksəldir;
- Tədris prosesində tarixi proses və hadisələri əzbərləmədən, mahiyyətini dərk edərək öyrənməni təmin edir;
- Eyni tarixi mövzular haqqında müxtəlif qaynaqlardan fərqli məlumatlar əldə etməklə, təhsilalanlarda tənqidi düşünmə, problem həlletmə və yaradıcılıq bacarıqlarının inkişafını təmin edir;
- Keçmiş zamanı ehtiva edən hadisələr konkret şəkildə təhsilalanlara təqdim edilərək, mücərrəd zaman konkretləşdirilə bilir;
- Xəritə və yerlər üç ölçülü olaraq göstərilərək, təhsilalanlarda məkan məfhumunun meydana gəlməsini asanlaşdıra bilir;
- Qaynaqları birinci əldən rahat əldə etmək və sinif mühitində istifadə etmək olur;
- Fərdi öyrənməni dəstəkləyərək, fərdi ehtiyacları (fərdi xüsusiyyətləri, bacarıqları, səviyyə fərqlərini) təmin edə bilir;
- «Virtual gəzinti»lər ilə tarixi yerləri və muzeyləri sinif mühitində ziyarət etmək olur [Lloyd Jan M., Dean Laura A. & Coper Diane L. 2009; Turan R. ve Ulusoy K. 2011; Sert G., Kurtoğlu M. ve dig. 2012; Məmmədova N. 2019].

İctimai fənlər üzrə mövzuların tədrisində müasir avadanlıqların tətbiqinə istiqamətlənmiş araşdırmada təhlil modelindən istifadə edilmişdir.

Diaqram 1. Fənn müəllimlərinin şəxsi göstəriciləri



Pedaqoji eksperiment Azərbaycan Respublikasının Bakı, Gəncə, Lənkəran şəhərlərinin, Oğuz, Qəbələ və Quba rayonlarının məktəblərində (tipik dövlət məktəbləri, həmçinin «Elektron məktəb» pilot layihəsinin həyata keçirildiyi məktəblər) aparılmışdır.

Müəllimlərin şəxsi göstəriciləri

Bu eksperimentdə müvafiq məktəblərin təsadüfi yolla seçilmiş 53 ictimai fənn müəllimi (7-9-cu siniflərdə dərs deyən) iştirak etmişdir.

İlk növbədə anket sorğusunda iştirak edən ictimai fənn müəllimlərinin şəxsi göstəriciləri təhlil edilmiş, onların cinsi fərqlilikləri nəzərə alınmaqla, alınan nəticə diaqram 1-də verilmişdir.

Daha sonra fənn müəllimləri ilə anket sorğusu keçirilmişdir. Tətbiq olunan sorğu SPSS-na, Likert miqyasına görə hesablanmışdır. Burada məktəblərin 7-9-cu siniflərində dərs deyən ictimai fənn müəllimləri tərəfindən təlim zamanı müasir texnoloji avadanlıqlar və resurslardan necə istifadə edilməsi ilə əlaqədar müəllimlərin fikirləri əks olunmuşdur. İctimai fənn müəllimlərinin müasir tədris avadanlıqları və resurslarından istifadə etmə səviyyəsini qarşıya çıxan problemləri müəyyən etmək məqsədi ilə apardığımız araşdırmada bu suallara cavab axtarılmışdır:

1. Müəllimlərin öz mühazirə qeydlərini internetdə yayımlamaqla təhsilalanların dərsə hazırlığını təmin etməsi nə səviyyədədir?

2. Təhsilverənlərin tədris prosesi üçün zəruri hesab edilən resursları kompüterə köçürərək istifadə etmə bacarıqları məqbul hesab oluna bilərmi?

3. Tədris prosesində planşet, kompüter, «Ağıllı lövhə» və proyektorlardan istifadə edərək təhsilalanlarda xəritələr və digər elektron resurslar əsasında

Cədvəl 1. İctimai fənn müəllimlərinin məktəblərin tipləri üzrə ayrı-ayrı cavab göstəricilərinin birinci sualla bağlı müqayisəli təhlili

Məktəbin növü	**«Mühazirə qeydlərini internetdə yayımlamaqla təhsilalanların dərsə hazırlıqlı olmasını təmin edirəm»**								
	N	Müntəzəm hər gün		Həftədə 2-3 dəfə		Ayda 1 dəfə		Nadir halda	
Tipik dövlət məktəbləri	n	n	%	n	%	n	%	n	%
	34	2	5.9	6	17.6	11	32.4	15	44.1
«Elektron məktəb»lər	19	8	42.1	11	57.9	0	0	0	0
Cəmi	53	10	19	17	32.0	11	20.8	15	28.3

qeydlər aparmağın təmini ilə bağlı problemlər müşahidə olunurmu?

4. İctimai fənn müəllimlərinin internetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi, mədəni xüsusiyyətləri barədə məlumat verməsi və nəticə çıxarmağın sistemli şəkildə təmin edilməsi qaneedicidirmi?


Müxtəlif məktəb tiplərində (tipik dövlət məktəbləri və «Elektron məktəb»lər) ictimai fənn müəllimlərinin bu suallara cavabının təhlili cədvəl 1-4 və diaqram 2-5-də verilmişdir.

Cədvəl 1-dən göründüyü kimi cavab göstəriciləri müxtəlifdir. Müəllimlərin cavablarına görə, hər iki məktəb tipində ayrı-ayrılıqda göstəricilər belədir: tipik dövlət məktəblərində müəllimlərin 5,9 faizi müntəzəm olaraq hər gün; 17,6 faizi həftədə 2-3 dəfə; 32,4 faizi ayda 1 dəfə, 44,1 faizi nadir halda mühazirə qeydlərini internetdə yayımlamaqla təhsilalanların dərsə hazırlıqlı olmasını təmin edir. «Elektron məktəb»lərdə isə cavab göstəriciləri belədir: müntəzəm olaraq hər gün 42,1 faiz; həftədə 2-3 dəfə 57,9 faiz.

Hər iki məktəb tipində mühazirə qeydlərini internetdə yayımlamaqla təhsilalanların dərsə hazırlıqlı olmasını təmin edilməsi ilə bağlı ümumi cavab göstəricilərinin paylanması diaqram 2-də verilmişdir.

Cədvəl 2-yə əsasən, hər iki məktəb tipində göstəricilər ayrı-ayrılıqda belədir: tipik dövlət məktəblərində-müəllimlərin 20,6 faizi müntəzəm olaraq hər gün; 14,7 faizi həftədə 2-3 dəfə; 35,3 faizi ayda 1 dəfə, 29,4 faizi nadir halda, «Elektron


Diaqram 2. Tipik dövlət məktəbləri və «Elektron məktəb»lər üzrə ümumi göstərici



Cədvəl 2. Tədris prosesi üçün zəruri hesab edilən resursların kompüterə köçürülərək istifadə edilməsi ilə bağlı məktəblərin tipləri üzrə ayrı-ayrılıqda müəllimlərin cavab göstəricilərinin müqayisəli təhlili

Məktəbin növü	**«Tədris prosesi üçün zəruri hesab etdiyim resursları kompüterə köçürərək istifadə edirəm»**								
	N	Müntəzəm hər gün		Həftədə 2-3 dəfə		Ayda 1 dəfə		Nadir halda	
Tipik dövlət məktəbləri	n	n	%	n	%	n	%	n	%
	34	7	20.6	5	14.7	12	35.3	10	29.4
«Elektron məktəb»lər	19	12	63.1	7	36.8	0	0	0	0
Cəmi	53	19	35.8	12	22.6	12	22.6	10	18.9

Diaqram 3. Tipik dövlət məktəbləri və «Elektron məktəb»lər üzrə ümumi göstərici



məktəb»lərdə isə müəllimlərin 63,1 faizi müntəzəm olaraq hər gün; 36,8 faizi həftədə 2-3 dəfə dərs üçün zəruri hesab edilən resursları kompüterə köçürərək istifadə edir.

Tədris prosesi üçün zəruri hesab edilən resursların kompüterə köçürülərək istifadə edilməsi ilə bağlı hər iki məktəb tipi üzrə müəllimlərin cavab göstəricilərinin ümumi paylanması diaqram 3-də verilmişdir.

Cədvəl 3-ə əsasən, tipik dövlət məktəblərində müəllimlərin 3,0 faizi müntəzəm olaraq hər gün; 23,5 faizi həftədə 2-3 dəfə; 32,4 faizi ayda 1 dəfə, 41,2 faizi nadir halda, «Elektron məktəb»lərdə isə 47,4 faizi müntəzəm olaraq hər gün; 42,1 faizi həftədə 2-3 dəfə, 10,5 faizi ayda 1 dəfə planşet-kompüterlərin köməyi ilə təhsilalanların xəritələr və digər resurslar əsasında qeydlər aparmasını təmin edir. Təhlilə əsaslanıb demək olar ki, tipik dövlət məktəblərində bu sahədə hələ də müəyyən problemlər mövcuddur.


Təhsilalanların planşet-kompüterlərdən istifadə edərək xəritələr və digər resurslar əsasında qeydlər aparmasının təmin olunması ilə bağlı müəllimlərin cavab göstəricilərinin ümumi paylanması diaqram 4-də verilmişdir.

İnternetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi, mədəni xüsusiyyətləri barədə məlumat verilməsi və nəticə

Cədvəl 3. Tədris prosesində planşet-kompüterlərdən istifadə vasitəsilə təhsilalanların xəritələr və digər resurslar əsasında qeydlər aparmasının təmin edilməsi ilə bağlı müəllimlərin cavab göstəriciləri

Məktəbin növü	**«Tədris prosesində planşet-kompüterlərdən istifadə edərək təhsilalanları xəritələr və digər resurslar əsasında qeydlər aparmağı təmin edirəm»**								
	N	Müntəzəm hər gün		Həftədə 2-3 dəfə		Ayda 1 dəfə		Nadir halda	
Tipik dövlət məktəbləri	n	n	%	n	%	n	%	n	%
	34	1	3.0	8	23.5	11	32.4	14	41.2
«Elektron məktəb»lər	19	9	47.4	8	42.1	2	10.5	0	0
Cəmi	53	10	19.0	16	30.1	13	24.5	14	26.4

Diaqram 4. Tipik dövlət məktəbləri və «Elektron məktəb»lər üzrə ümumi göstərici



çıxarılmasının təmin edilməsi ilə bağlı müəllimlərin cavab göstəriciləri cədvəl 4-də verilmişdir.

Bu cədvəldəki cavabların müqayisəli təhlili «Elektron məktəb»lərdə istifadə səviyyəsinin daha yüksək olduğunu göstərir. «Elektron məktəb»lərdə müəllimlərin 57,9 faizi müntəzəm olaraq hər gün, 42,1 faizi həftədə 2-3 dəfə internetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi, mədəni xüsusiyyətləri barədə məlumat verilməsi və nəticə çıxarılmasının təmin edilməsi ilə bağlı müsbət fikir bildirmişlər.

Göründüyü kimi, «Elektron məktəb»lərlə müqayisədə tipik dövlət məktəblərində istifadə səviyyəsi digər cavab göstəriciləri kimi aşağıdır. Bunun səbəbi tipik dövlət məktəblərində internet bağlantısının qənaətbəxş olmamasıdır.

İnternetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi, mədəni xüsusiyyətləri barədə məlumat verilməsi və nəticə çıxarılmasının təmin edilməsi ilə bağlı hər iki məktəb tipi üzrə ümumi göstəriciləri diaqram 5-də verilmişdir.

Təhlilə görə, texnoloji infrastruktur qeyri-kafi olan tipik dövlət məktəblərində «Tarix» fənnin tədrisində kompüter texnologiyalı avadanlıqlar və elektron resurslardan effektli istifadə edilmir. Çünki tipik dövlət məktəblərində texnoloji infrastruktur kafi olmadığı üçün, kompüter və planşet kimi texnoloji avadanlıqlar bir çox halda sinif mühitində olmur. Məhz bu baxımdan, tipik dövlət məktəblərin müəllimləri kompüter texnologiyalı avadanlıqlar və elektron resursları tədrisin məzmunu ilə birləşdirə bilmirlər.«Elektron məktəb»lərdə isə bunun əksini görürük.

Bunun əsas səbəblərindən biri «Elektron məktəb»lərin şagirdlərinin kompüter texnologiyasından həm evdə, həm də məktəbdə daha çox istifadə edə bilmələridir. Bu tipdən olan təhsil müəssisələrinin müəllimləri tədris prosesini məktəb xaricində də davam etdirmək üçün texnoloji avadanlıqlarla bağlı tapşırıqlar vermə məsələsində daha rahat davranır, bununla da, texnoloji avadanlıqlarla təhsilin davamlılığını təmin edirlər.


Təhlildən alınan nəticələrə görə, hazırda «Elektron məktəb» layihəsi çərçivəsində «Ağıllı lövhə» və proyektordan istifadəyə daha çox diqqət yetirilir. Ölkəmiz üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilir. Onu da qeyd edək ki, hazırda Təhsil Nazirliyi müasir kompüter texnologiyaları ilə əlaqəli olaraq: internet istifadə-web dizaynı, Power-point istifadə və excel, ağıllı (smart) löhhə istifadə və digər oxşar məsələlərdə xidmətdaxili təlim kurslarını mütəmadi həyata keçirir.

Tədqiqat aparılan tipik dövlət məktəblərində isə müasir tədris avadanlıqları və resurslarının tətbiqinin hazırkı səviyyəsi qənaətbəxş hesab edilə bilməz. Bunu ölkə miqyasında dövlət məktəblərində infrastrukturun müasir dövrün tələblərinə cavab verməməsi, informasiya və kommunikasiya texnologiyalarının

Cədvəl 4. İnternetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi, mədəni xüsusiyyətləri barədə məlumat verilməsi və nəticə çıxarılmasının təmin edilməsi ilə bağlı müəllimlərin cavab göstəriciləri

Məktəbin növü	**«İnternetdən müvafiq resurslar tapmaqla təhsilalanlara dövrün, cəmiyyətlərin siyasi, iqtisadi və mədəni xüsusiyyətləri barədə məlumat verirəm və nəticə çıxarmağı təmin edirəm»**								
	N	Müntəzəm hər gün		Həftədə 2-3 dəfə		Ayda 1 dəfə		Nadir halda	
Tipik dövlət məktəbləri	n	n	%	n	%	n	%	n	%
	34	2	5.9	11	32.4	9	26.5	12	35.3
«Elektron məktəb»lər	19	11	57.9	8	42.1	0	0	0	0
Cəmi	53	13	24.5	19	35.8	9	17	12	22.6

Diaqram 5. Tipik dövlət məktəbləri və «Elektron məktəb»lər üzrə ümumi göstərici



istifadə səviyyəsinə görə şəhər və rayonlar arasında kəskin fərqin olması, internet resurslarının geniş istifadə olunmasında ciddi problemlərin olması, bu istiqamətdə milli resursların azlığı və digər oxşar amillər aydın göstərir (bax: cədvəl 1-4, diaqram 2-5).

Təhsil texnologiyalarının nəzəri faydası nə qədər çox olursa olsun, məktəblərin infrastrukturu müasir dövrün tələblərinə cavab vermirsə, müəllim müasir tədris avadanlıqları və resurslardan istifadə bacarığına malik deyilsə, təbii ki, onların tədris prosesində səmərəsindən danışmaq yersizdir. Dövlət məktəblərində məlumatların, imkanların qeyri-kafi olması səbəbindən müəllimlər bir çox hallarda ənənəvi metodlara üstünlük verir və yenilikləri mütəmadi olaraq izləmirlər.

«Elektron məktəb»lər təlimin keyfiyyətinin tipik məktəblərlə müqayisədə yüksək olması bu sistemə qoşulan pilot təhsil müəssisələrinin zəruri müasir tədris avadanlıqları ilə təchizatı, yüksək sürətli internet bağlantılarının təmin edilməsi, bu məktəblərdə çalışan müəllimlərin İKT sahəsində bilik və bacarıqları ilə bağlıdır.

Nəticə

Araşdırmada əldə edilən nəticələrə əsaslanaraq, məktəblərdə müasir tədris avadanlıqları və resurslarının sistemli istifadəsində mövcud problemlərin həll edilməsi ilə bağlı qeyd olunan təkliflərin diqqətdə saxlanması vacibdir:

- Məktəblərdəki texnoloji infrastrukturun yenilənməsi və bunun davamlı olması;
- Bütün təhsil müəssisələrinin internet bağlantısı ilə tam təmin olunması; Məktəblərin internetə qoşulmasını həyata keçirərkən, şagirdləri zərərli informasiyadan mühafizə və internetdə təhlükə-sizliyini təmin etmək üçün müvafiq tədbirlərin həyata keçirilməsi;
- Müəllimlərin müasir tədris avadanlıqları və elektron resurslardan istifadə etmələri üçün müvafiq nəzəri biliklərə və praktik bacarıqlara yiyələnməsi. Bu məhdudluğun aradan qaldırılması məqsədilə, ilk növbədə müəllimlərin xidmətdaxili təlim kurslarına geniş şəkildə cəlb edilməsi və bu prosesin sistematik davam etdirilməsi;
- Məktəb rəhbərliyinin müasir texnologiyalardan istifadə məsələsini daim diqqət mərkəzində saxlaması, bu işdə müəllimlərə dəstək verilməsi və onların maarifləndirilməsi;
- İctimai fənlərin məzmununu əhatə edən dərsliklər və digər zəruri resursların hamısının elektron formatda nüsxələrinin yaradılması, milli elektron resursların hazırlanması və pulsuz olaraq müəllimlərin istifadəsinə verilməsi;
- Müasir tədris avadanlıqları və resurslardan istifadə edilməsi ilə bağlı

müəllimlərin nəzəri və praktik bacarıqlarını yoxlayan imtahanların tətbiq olunması, bu imtahanlarda texnoloji kafiliyi isbat edən müəllimlərə əlavə maaş verilməsi və stimullaşdırıcı tədbirlər görülməsi;

• Müəllimlərin tədris prosesində texnoloji avadanlıqlardan səmərəli istifadə etməsi və yenilikləri mütəmadi izləməsi üçün kurslar, seminarlar, həmçinin televiziya verilişlərinin təşkil olunması;

• Ölkənin müxtəlif bölgələrində ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlərin bu istiqamətdə nəzəri və praktik bacarıqlarını yoxlamaq üçün kəmiyyət və keyfiyyət tədqiqatlarının aparılması.

İstifadə edilmiş ədəbiyyat

1. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası. «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında». Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2014-cü il tarixli Sərəncamı. http: President. az/articles/11312. http: www.e-qanun.az.
2. «Elektron məktəb» layihəsinin tətbiq olunması haqqında» (2009). Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 oktyabr 2009-cu il tarixli 1108 nömrəli əmri. http://edu.gov.az.
3. Alkan C. (2011). Eğitimde Bilği Teknolojileri. Ankara: Anı Yayıncılık, 8-ci baskı, 240 s.
4. Alpar D., Gülşah B., Yusuf A. (2007). Öğrenci Merkezli Eğitimde Eğitim Teknolojileri Uyğulamaları // İstanbul Üniversitesi: Hasan Ali Yücel Eğitim Fakültesi, № 7. s. 19-31. https://books.google.az.ist.tarixi06.07.15.
5. Cəbrayılov İ.H. (2013). Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı, Mütərcim. 296 s.
6. Chadwick C. (2002). Why computers are failing 2*in the education of our children. Educational Technology. pp. 35-40.
7. D'Angelo Jill M. & Woosley Sherry A. (2007). Technology in the Classroom: Friend or Foe // Education, Sum. vol. 127, № 4, pp. 462-471.
8. İşman A. (2006). Öğretim Teknolojileri ve Materyal Geliştirme, Değişim Yay., İstanbul.
9. Lloyd Jan M., Dean Laura A. & Coper Diane L. (2009). Students' Technology Use and Its Effects on Peer Relationships, Academic Involvement and Healthy Lifestyles //NASPA Journal, 2009, vol.44, № 3, pp.481-495 http:// journals.naspa.org.// cgi.viewcontent.
10. Məmmədova N. (2015). «Yeni kurikulumlara uyğun müvafiq tədris resurslarının yaradılması». Təhsilin inkişafı üzrə dövlət strategiyası: perspektivlər və vəzifələr. Bakı, ARTPİ-nin Təhsil Texnologiyaları mərkəzi, s. 260-302.
11. Məmmədova N. (2015). Ümumtəhsil məktəblərində tarix fənninin tədrisində

avadanlıq və tədris resurslarından istifadəyə müasir yanaşma istiqamətləri. «Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 05-06 iyun, Bakı: Mütərcim nəşriyyatı, s. 142-144.
12. Məmmədova N. (2016). Humanitar fənlər üzrə tədris resurslarının məzmununa müasir yanaşma. Azərbaycan Respublikasının Təhsil İnstitutu. «Elmi əsərlər» jurnalı. № 2 (83), s. 17-24.
13. Məmmədova N. (2016). Keyfiyyətli təhsil xidmətlərinin təqdim olunmasında müasir tədris avadanlıqları və resursların rolu. Bakı Qızlar Universiteti. «Elmi əsərlər» jurnalı. № 4 (28), s. 89-95.
14. Məmmədova N. (2016). Tədris avadanlıqları və resursların məzmununun dəyişməsini zəruri edən amillər. «Azərbaycan məktəbi» jurnalı, № 2 (672), s. 51-57.
15. Məmmədova N. (2016). Tədris resurslarından istifadə zamanı qarşıya çıxan problemlər haqqında. «Azərbaycan məktəbi» jurnalı, № 6 (676), s. 35-40.
16. Məmmədova N. (2018). Təhsil sistemində müasir texnologiyadan istifadənin hüquqi qaynaqları. Bakı Slavyan Universiteti Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi-məqalələr məcmuəsi. № 2, s. 122-129.
17. Məmmədova N. (2019). Texnoloji avadanlıqların və resursların ümumtəhsil məktəblərində istifadəsinə dair araşdırma. «Azərbaycan məktəbi» jurnalı, № 2, s. 25-46.
18. Molenda M. (2004). «The Definition of Educational Technology», coauthor with Rhonda Robinson. Unpublished draft prepared for the AECT Definition and Terminology Committee.
19. Refik Turan. (Ed.). Sosyal Bilgilerin Temelleri. Pegem Akademi Yay., 2. Baskı, Ankara, ss. 1-20.
20. Sert G., Kurtoğlu M. ve dig. (2012). Overview of research on teachers technology usage// Akademik Bilişim, №1, pp. 1-8.
21. Tay B. (2011). Sosyal Bilgiler Öğretiminin Dünü Bugünü ve Yarını.
22. Turan R. ve Ulusoy K. (2011), «Sosyal Bilgilerde Tarihin Yeri ve Önemi», Sosyal Bilgilerin Temelleri, Refik, Turan, (Ed.), Pegem Akademi Yay., 2. Baskı, Ankara, s. 137-158.
23. Андресен Бент Б. (2007). Мулйтимедиа в образовании: специалйный учебный курс. Информационные технологии в образовании. 2-е изд., испр. и доп. М., Дрофа, 224 с.
24. Мамедова Н. (2016). Рол современного учебного оборудования и ілектронных ресурсов в когнитивном развитии учащихся. Балтийский гуманитарный журнал. Россия, г. Калининград, Типография «Полиар». том 5, № 4 (17), с. 261-263.